

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 210 (24.347)

*14 noyabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanı qəbul edib.

Görüşdə Cənubi Qafqaz regionunda vəziyyətlə və ATƏT Parlament Assambleyasının rolu ilə bağlı fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı qeyd etdi ki, Cənubi Qafqaz regionunda artıq yeni reallıqlar yaranıb. Prezident İlham Əliyev vurğuladı ki, regionda baş vermiş son hadisələr Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etmiş işğalı və hərbi təcavüzü kontekstində nəzərdən keçirilməlidir. Bu işğal və təcavüzün nəticələrinə baxılmadan regionun gələcəyi ilə bağlı baxışların irəli sürülməsi düzgün yanaşma olmaz.

Prezident İlham Əliyev bildirdi ki, Ermənistan Azərbaycan torpaqlarının işğalını əbədiləşdirməyə çalışırdı. İşğal dövründə həyata keçirilmiş vasitəçilik missiyaları tamamilə uğursuz olmuş, işğal və təcavüzün nəticələrini aradan qaldırmamışdır.

Dövlətimizin başçısı vurğuladı ki, 44 günlük Vətən müharibəsindən sonra imzalanmış 2020-ci il 10 noyabr Bəyanatından irəli gələn öhdəlikləri Ermənistan yerinə yetirmədi. Belə ki, Ermənistan nəinki Qarabağdakı silahlı qüvvələrini ərazidən çıxarmamışdır, hətta həmin ərazini hərbi texnikanın, silahlı qüvvələrinin şəxsi heyətinin və minaların daşınması üçün məqsədyönlü şəkildə istifadə edirdi. Həmçinin Ermənistan Şərqi Zəngəzurla Naxçıvan arasında əlaqənin yaradılması ilə bağlı öz öhdəliklərini yerinə yetirmədi.

Prezident İlham Əliyev qeyd etdi ki, artıq bu məsələlər keçmişdə qaldı. Hazırda regionun sülh gündəliyi üçün çox yaxşı imkanlar var. Dövlətimizin başçısı vurğuladı ki, 44 günlük Vətən müharibəsindən sonra sülh müqaviləsi və onun əsasını təşkil edən prinsiplər təşəbbüsü ilə də məhz Azərbaycan çıxış edib. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Cənubi Qafqazda davamlı sülhün tərəfdarıdır və regional sülh gündəliyini, Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülh müqaviləsinin imzalanmasını dəstəkləyir.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan hazırda birgəyaşayış və geriqayıtma hüququ ilə əlaqədar aydın və şəffaf proqramı təqdim etsə də, azərbaycanlıların Ermənistana geri qayıdışı ilə bağlı geriqayıtma hüququnu Ermənistan inkar edir və bununla əlaqədar olaraq hər hansı bir baxış ortaya qoymayıb.

Görüşdə qeyd olundu ki, ATƏT Parlament Assambleyası Ermənistan və Azərbaycan nümayəndə heyətləri arasında etimadın qurulması baxımından səmərəli platforma ola bilər.

**AZƏRTAC**

## Naxçıvanda şəhid ailələrinə, qazilərə və sağlamlıq imkanları məhdud şəxslərə mənzillər və avtomobillər təqdim olunub





Noyabrın 13-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid ailəsi və qazilərlə görüşüb.



3 İkinci Qarabağ müharibəsi şəhidinin ailəsinə, 14 qaziyə və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılması zamanı sağlamlıq imkanlarını qismən itirmiş 1 nəfərə yeni mənzil təyin olunub, 5 qaziyə və 2 sağlamlıq imkanları məhdud şəxsə isə avtomobillər təqdim edilib.

Təqdimat mərasimində Fuad Nəcəfli bu ilin ölkəmiz üçün əlamətdar hadisələrlə zəngin olduğunu qeyd edərək deyib: “Müzəffər Ali Baş Komandanımızın iştirakı ilə Zəfər bayramının 3-cü ildönümünü Xankəndidə zəfər paradı ilə qeyd etdik. Bu fəxarəti bizə qalib ordunun qalib əsgərləri yaşatdı. Əlahiddə Ümumqoşun Ordunun əsgər və zabitlərinin də həmin paradda iştirakı xüsusilə qürurverici idi”.

Fuad Nəcəfli qeyd edib ki, dövlətimiz hər zaman şəhid ailələri və qazilərimizin yanındadır. Onların sağlamlığı daim diqqətdə saxlanılır, həyat şəraitinin yaxşılaşdırılması məqsədilə ardıcıl sosial layihələr həyata keçirilir. Naxçıvanda şəhid ailələri və qazilərlə bağlı ictimai birliklərin yaradılması bu layihələrin daha da koordinasiyalı şəkildə yerinə yetirilməsinə, onların problemlərinin daha operativ həllinə imkan verəcək.

Səlahiyyətli nümayəndə Zəfər bayramının 3-cü ildönümü və antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa olunması münasibətilə təbriklərini çatdırıb, şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyib.



Sonra Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim edib.

Şəhid Yaqub Nəcəfovun atası Məhəmməd Nəcəfov şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıq edib, Zəfər Günü və digər bayramlar münasibətilə təbriklərini çatdırıb.

Şəhid ailələrinə və qazilərə verilən 2 və 3 otaqlı mənzillər Naxçıvan, Ordubad, Babək, Şahbuz, Culfa şəhərlərində, eləcə də Sədərək rayonunun Heydərabad və Kəngərli rayonunun Qıvraq qəsəbələrindəki yaşayış binalarında yerləşir.

**“Şərq qapısı”**

# Xalqın düzgün seçimi və ya 20 ilin PREZİDENTİ



*Praqmatik düşüncə, idarəetmə məharəti, liderlik istedadı, sərkərdəlik qabiliyyəti hər dövlət başçısına mənsub olan keyfiyyətlər deyil. Dünyanın siyasi coğrafiyasına nəzər salsaq, bu keyfiyyətlərə malik çox az sayda dövlət başçısına rast gələrik. Bu təbiətinmi, Ulu Tanrınınmı səxavətidir? – sualının cavabını vermək isə bizim dərketmə təfəkkürümüz xaricindədir. Tarixən belə rəhbərlər mənsub olduğu xalqın, təmsil etdiyi dövlətin ən qiymətli milli sərvəti kimi dünyanın həsəd apardığı, hətta əks mövqedə dayanan rəhbərlərin də diqqətini özünə cəlb edib. Onlar xalqının dünəninə söykənərək bu gününü yaşatmağı, sabaha cavabdehlik hissini vəzifə və vətəndaş borcu kimi yerinə yetirməyi həyat amalına çeviriblər. Rastlaşdıqları heç bir çətinlik onları öz yolundan döndərə bilməyib; əksinə, daha mübariz edib. Bu mübarizlik isə həmin rəhbərlərə böyük şöhrət gətirib, mənsub olduğu xalqın qəlbində onlara əbədi sevgi və məhəbbət qazandırıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elə ölkə başçıları içərisində ön sıralarda olması isə hər bir azərbaycanlıya ikiqat, üçqat sevinc yaşadır. Çünki dünyanın güc dövlətlərinin başçıları sırasında kiçik bir respublikanın rəhbəri kimi belə böyük nüfuza yüksəlmək asan məsələ deyil və xüsusilə vurğulanmalıdır ki, O, bu nüfuzu məhz praqmatik düşüncəsi, idarəetmə məharəti, liderlik istedadı, sərkərdəlik qabiliyyəti ilə qazanıb...*

***

Respublikaya rəhbərlik etdiyi 20 il ərzində cənab İlham Əliyev hələ hakimiyyətə gəldiyi ilk günlərdə dediyi: ***“Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rifah halı, təhlükəsizliyi, yaşayışı dayanır. Hər bir dövlət və hər bir rəhbər məhz bu prinsiplərlə yaşamalıdır. Xalqa xidmət etmək, xalqın qayğıları ilə yaşamaq, xalqı narahat edən problemləri daim diqqət mərkəzində saxlamaq və onları həll etmək lazımdır”***, – platformasını fəaliyyət manifesti kimi həyata keçirməkdədir. Belə ki, bu gün ölkəmizdə hər bir sahədə davamlı xarakter almış inkişaf və tərəqqiyə mükəmməl idarəetmə hesabına nail olunub; demokratik və hüquqi cəmiyyət formalaşdırılıb, dövlətin iqtisadi potensialının gücləndirilməsi diqqət mərkəzində saxlanılıb. Dövlət başçısının həyata keçirdiyi bütün islahatlar və tədbirlər Onun xalqımız və dövlətimiz qarşısında böyük tarixi xidmətləri, Ulu Öndərimiz Heydər Əliyevin yoluna sədaqəti, nəticə etibarilə, ölkə vətəndaşlarının layiq olduğu səviyyədə yaşamasını təmin etməyi diqqət mərkəzində saxlamasıdır.

***

Enişli-yoxuşlu 20 ilin Azərbaycana nələr verdiyi barədə geniş danışmağa, çoxsaylı faktlara müraciət etməyə ehtiyac duymuram. Çünki bu yol xalqın gözü qarşısında keçib, xalq da Onun arxasında dayanıb. Məhz buna görə də bu gün dövlət-rəhbər-xalq birliyindən bəhrələnmiş Azərbaycan dünyada söz sahibidir. Bu isə özünün ən yüksək zirvəsində olan müstəqilliyimizin bizə verdiyi nemətdir. Təbii ki, buna nail olmaqda başlıca amil cənab İlham Əliyevin müstəqilliyimizi qorumaq, onu daha da möhkəmləndirmək istiqamətində gecəli-gündüzlü fəaliyyətinin nəticəsidir və görkəmli dövlət xadimi Heydər Əliyevin vaxtilə dediyi: ***“Müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir”*** aksiomasını yada salır. Və bütün Azərbaycan xalqı müstəqilliyə nail olduğumuz andan bu günə kimi keçirilən yolda gördüyümüz çətinliklərin necə dəf edilməsinin şahididr. ***“Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, Onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir”***, – deyən ölkə başçısı müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətə sədaqətini nümayiş etdirməklə bir daha hər birimizdə sabahımızın taleyinə cavabdehliyini ortaya qoyur. Yunan filosofu Platonun *“Ağıllı dövlət başçısı baş verə biləcək hadisələrin qarşısını peşəkarcasına almaqla, əslində öz dövlətinə və xalqına xidmət edir... onun qurduğu möhkəm sütunlu dövlət... əbədi olur və banisini bəşər tarixi boyu yaşadır”* qənaəti dünya siyasət tarixində dəfələrlə təsdiqini tapıb. Bu baxımdan Azərbaycan xalqı xoşbəxtdir ki, görkəmli dövlət xadimi Heydər Əliyevin yolunu uğurla davam etdirən cənab İlham Əliyev kimi rəhbəri var.

***

Zəngin milli-mənəvi dəyərlərimizə sadiqlik göstərən bir ailədə – Ulu Öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın ailəsində böyüyən, Onların həyat təcrübəsindən bəhrələnən cənab İlham Əliyev haqqında müxtəlif dünya dövlətləri başçılarının, tanınmış siyasət xadimlərinin söylədikləri ölkə başçısının bilmədiyimiz müdrik keyfiyyətlərinə işıq salır. Mixail Qusman yazır: *“Siyasətçi üçün ən böyük məsələ siyasət məktəbi keçməkdir. O, XX və XXI əsrlərin ən nüfuzlu və böyük siyasi məktəbini – Heydər Əliyev məktəbini keçmişdir. Heç bir ata öz oğluna pis tale arzulamaz. Heydər Əliyev İlhamı böyük siyasətə gətirməklə bir ata və müdrik siyasətçi kimi hiss edirdi ki, İlham bu missiyanın öhdəsindən gələcək. Heydər Əliyev deyirdi ki, onda istedad görürəm, onda genetik kodlar var”.*

***Və Ulu Öndərin cənab İlham Əliyevdə öncədən müşahidə etdiklərini son 20 ildə xalqımızla yanaşı, bütün dünya gördü. Elə 3 dəfə onun ən yüksək səs göstəriciləri ilə Prezident seçilməsində, Azərbaycanda yeni reallıqlar yaradılmasında, bütün Qarabağda üçrəngli bayrağımızın dalğalanmasında, ölkədə görülən işlərin təməlində Heydər Əliyev amilinin, Heydər Əliyev siyasətinin dayandığını, bu siyasətə və Ulu Öndərin vəsiyyətlərinə sadiqliyini bəyan etmiş cənab Prezidentin, doğrudan da, böyük siyasi məktəb keçdiyini göstərir.***

Kurt Yeldonun dediyi kimi: *“Yüksək təhsilli İlham Əliyev uzaqgörən dövlət xadimidir. O, ölkənin ən çətin problemləri barədə açıq danışır və bunları həll etmək qərarında qətidir”.*

***

İctimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə inkişafın yeni mərhələsini yaşayan doğma Azərbaycanımızda son 20 ildə ölkə başçısı öz fəaliyyəti ilə sübut etdi ki, O, doğrudan da, uzaqgörən ölkə başçısı kimi yüksək siyasi nüfuz qazanmış Prezidentdir. Xalqımız isə görür ki, bu gün dövlət adlı maşınımızın, titanik gəmimizin sükanı etibarlı əllərdədir. Bu gün həmin fəaliyyətin hər bir detalında Ulu Öndərin yaratdığı siyasi məktəbin təlimi dayanır. Bu təlimin dövlətçiliyimizin, müstəqilliyimizin qorunmasına, inkişafına, tərəqqisinə xidmət etməsini bizə qarşı əks mövqedə dayanan qüvvələr həzm edə bilmirlər. Bu onların öz işidir... Ancaq fakt faktlığında qalır.

***

***Dünyanın güc dövlətlərinin 30 ildən də artıq müddətdə müşahidə və daha çox qərəzli şəkildə müdaxilə etdikləri Qarabağ probleminin həllində cənab İlham Əliyev sübut etdi ki, ağıl gücdən güclüdür və elə gücü məhz ağıl idarə edir.***

Yeri gəlmişkən, politoloq Brenda Şafferin sözlərini xatırlamağa ehtiyac duyuram. Çünki onun gəldiyi qənaət bu günün reallığıdır: *“Xalqınıza sadiqliyiniz, yüksək təhsil və bilik səviyyəniz, idarəçilik qabiliyyətiniz kifayət qədər bəllidir və mən əminəm ki, siz Azərbaycanı daha böyük tərəqqiyə və təhlükəsizliyə doğru aparacaqsınız”*. Bunu 44 günlük İkinci Qarabağ müharibəsi də göstərdi. Dönməz qətiyyəti, möhkəm iradəsi, dərin zəkası ilə 20 il ərzində problemin həllinin sülh yolu ilə mümkünlüyünü möhtəşəm beynəlxalq tribunalardan bəyan edən cənab İlham Əliyevin müharibə dövründə xarici ölkələrdən gəlmiş jurnalistlərə verdiyi müsahibələrdə: ***“...Buraya gəlməmişdən və bizə mühazirə oxumaqdan əvvəl güzgüyə baxın... Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik... Hazırlaşın!”*** deməsi ölkə başçısının düşmənə öz yerində oturması üçün bir mesaj idi. Onlar ağılla hərəkət etsəydilər, qədim Azərbaycan torpaqlarından öz terrorçu qüvvələrini çıxarsaydılar nə 2023-cü ilin sentyabr ayında lokal antiterror tədbirləri, nə də, təbii ki, itkilər olmazdı. Bu, ağlın qələbəsi kimi dəyərləndirilməklə, sülhsevər qüvvələr tərəfindən doğru addım kimi qiymətləndirilir.

***

Ermənistanın uzun illər havadarlarına arxayın olaraq İkinci Qarabağ müharibəsinə başlaması, müharibənin 44 günü ərzində biabırçı surətdə məğlubiyyətinin acılarını yaşaması təbiidir. Bu, öz yerində. Sözümüz ondadır ki, həmin müharibə dünya hərb tarixində bir yenilik kimi dəyərləndirilir.

***İlk olaraq onu deyək ki, qazanılmış tarixi Qələbə Azərbaycan Prezidentinin ordu quruculuğuna göstərdiyi böyük diqqətin məntiqi nəticəsi idi. Və cənab İlham Əliyevin ölkəmizin hərbi inventarının komplektləşdirilməsini diqqət mərkəzində saxlaması, dünyanın aparıcı hərbi şirkətlərinin məhsullarının əldə edilməsinə mühüm əhəmiyyət verməsi, döyüşçülərimizdə yüksək əhvali-ruhiyyənin təmin olunması bizə böyük Qələbə qazandırdı.***

Postmüharibə dövründə Rusiya mediası yazırdı: *“Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu? – demək çətindir. Azərbaycan Ordusunun əsgəri dağ yuxarı, həlak olmuş yoldaşı çiynində, döyüşə-döyüşə, qan tər içində qalxırdı. Nə yaralını, nə öləni əldən buraxmırdılar. Nəfəs almadan Şuşaya çıxdılar...”* Ukraynalı hərbi ekspert Aleksey Arestoviç isə Şuşanı işğaldan azadetmə əməliyyatını belə şərh edirdi: *“Azərbaycan Şuşanı azad etdi. Piyada döyüşləri ilə sursatları üstündə daşıya-daşıya, duman altında, pis hava şəraitində dağları yararaq qaytardı. “PUA”-larsız, tanksız, artilleriyasız şəhəri aldı”*. Budur ağlın gücü!

***

Nəyi nə vaxt edəcəyini yaxşı bilən ölkə başçısının yüksək keyfiyyətlərindən biri də Onda özünəinam və ətrafındakılara da bu inamı təlqin etmək keyfiyyətidir ki, sonda insanlarda Prezidentə olan inamı daha da gücləndirir; bu isə cənab İlham Əliyevin qətiyyətindən irəli gəlir. Amerikalı politoloq Zbiqnev Bjezinskinin dediyi kimi: *“Mən onu on ildən artıq bir müddətdir ki, tanıyıram... O, özünə inamlı, ciddi dövlət adamıdır və Avropanın həmin hissəsində öz mühüm rolu və konstruktiv mövqeyi ilə seçilir”.*

***

Tarix Ulu Tanrının müəyyən etdiyi sürətlə irəliləyir və prosesdə yeni reallıqlar yaranır. Cənubi Qafqazda isə bu reallıqların müəllifi cənab İlham Əliyevdir. Deməli, O həm də tarix yaradır. Görkəmli dövlət xadimi Heydər Əliyev də bunu yaxşı bilirdi ki, deyirdi: ***“İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək”.***

**✍ Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## 1828 investisiya layihəsinin maliyyələşdirilməsinə 187 milyon 110 min manatdan çox güzəştli kredit verilib

İqtisadiyyatın inkişafı və şaxələndirilməsi prosesində innovativ üsulların tətbiqi ilə reallaşdırılan sənayeyönümlü layihələrin də böyük payı vardır. Sənayenin inkişafına yönəlmiş əhəmiyyətli mexanizmlərdən biri dövlət başçısının təşəbbüsü ilə ölkəmizdə yaradılmış 7 sənaye parkı və 5 sənaye məhəlləsidir. Ölkə Prezidentinin müvafiq fərmanı ilə yaradılmış Şərur Sənaye Məhəlləsi Naxçıvanda sənayenin inkişafına öz töhfəsini verməkdədir. Məhəllədə sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb.




Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, artıq burada ayaqqabı, tikili mallar, Avropa qapıları, mebel, kağız kisə, karton tara istehsalı sahələri olmaqla, 7 sahibkarlıq sahəsi fəaliyyət göstərir. Bitki yağı, unlu qənnadı məmulatları, qəlyan tütünü istehsalı, metal dam örtüyü istehsalı istiqamətində işlər davam etdirilir.

Naxçıvanda sahibkarlığın inkişafına maliyyə dəstəyinin verilməsi, onlara müvəkkil banklar vasitəsilə güzəştli kreditlərin ödənilməsinin təmin edilməsi, iş adamlarının səmərəli biznes layihələrinin reallaşdırılması iqtisadiyyatın şaxələndirilməsində əhəmiyyətli olub. Məlumata əsasən 2003-2023-cü illər ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinin 1828 investisiya layihəsinin maliyyələşdirilməsinə 187 milyon 110 min manatdan çox güzəştli kredit verilib. Kreditlərin 17,3 faizi kənd təsərrüfatı məhsullarının istehsalına, 20,8 faizi xidmət sahələrinin inkişafına, 61,9 faizi isə müxtəlif növ sənaye məhsullarının istehsalı, emalı, o cümlədən aqrar məhsulların emalı və digər sahələrin inkişafına yönəldilib. Naxçıvanda biznes subyektlərinin maliyyə resurslarına çıxışının asanlaşdırılması məqsədilə Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən Naxçıvanda fəaliyyət göstərən bütün banklara 15 milyon manat vəsait ayrılıb. Bu vəsaitdən cari ilin 9 ayı ərzində Naxçıvanda fəaliyyət göstərən sahibkarlara 1 milyon 375 min manat güzəştli şərtlərlə kredit ayrılmışdır ki, bunun 450 min manatı sənayenin, 250 min manatı kənd təsərrüfatının, 675 min manatı isə xidmət sektorunun payına düşüb. Qarşıdakı illər üçün də iqtisadiyyatın şaxələndirilməsi məqsədilə daha geniş kapitalın ayrılması planlaşdırılır.

Nazirliyin məlumatında o da qeyd olunur ki, hazırda muxtar respublika üzrə sahibkarlıq subyektlərinin əksəriyyəti mikro, kiçik və orta sahibkarlıq (KOB) subyektləridir. KOB-ların iqtisadiyyatda rolunun, bilik və bacarıqlarının artırılması, maliyyə resurslarına və satış bazarlarına çıxışının genişləndirilməsi, dövlət xidmətlərinə rahat çıxışının təmin edilməsi istiqamətində muxtar respublikada “KOB dostu” ofisləri fəaliyyətə başlayıb. Biznes biliklərinin artırılmasına dəstək olan KOB inkişaf mərkəzi tərəfindən, sahibkarlara vahid məkanda dövlət və özəl xidmətlər göstərilir. Lisenziyalar və icazələrin alınması sahibkarlıq fəaliyyəti üçün əsas şərtlərdəndir. Bu prosesi sadələşdirmək üçün İqtisadiyyat Nazirliyi tərəfindən, dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla, sahibkarlara lisenziyaların “ASAN xidmət” vasitəsilə verilməsi davam etdirilir. Təkcə cari ilin ötən dövrü ərzində 54 lisenziya verilib və dövlət büdcəsinə 60 min manatdan çox vəsait daxil olub. Sahibkarların biznes fəaliyyətini stimullaşdıran, onların vergi və gömrük güzəştləri əldə etməsi üçün əlverişli şərait yaradan və 2016-cı ildən tətbiq edilən investisiya təşviqi mexanizmi çərçivəsində 7 ildən artıq müddət ərzində 18 sahibkarlıq subyektinin 24 layihəsi təşviq olunub, indiyədək dəyəri 77 milyon manatdan artıq olan texnika, texnoloji avadanlıq və qurğular güzəştli şərtlərlə muxtar respublikaya idxal edilib və müasir istehsal sahələri qurulub.

**✍ Nail ƏSGƏROV**

# Peşəkarlığın sirri peşəyə sevgidədir

## *Peşələr festivalı bu dəfə Naxçıvan şəhər sakinlərinin qonağı olub*



*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən ölkəmizdə ikinci dəfə keçirilən Peşələr festivalı bu dəfə Naxçıvan şəhərində baş tutub.*

“Peşəni peşəkardan soruş!” devizi ilə keçirilən festivalda Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin əməkdaşı Pənah Mehdiyev, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyəti sədrinin müşaviri Səftər Rəhimli, dövlət və özəl qurumların nümayəndələri, yerli ekspertlər, işəgötürənlər, tələbə və gənclər iştirak ediblər.





Anar Kərimov ötən il də uğurla reallaşan festivalın gənclər üçün xüsusi əhəmiyyət kəsb etdiyini, düzgün peşə seçiminin, gələcəyin peşələri barədə məlumatlılığın artırılmasında xüsusi rol oynadığını vurğulayıb.

Çıxışlardan sonra start götürən festivalı Naxçıvan sakinləri böyük maraqla qarşılayıblar. Tədbirə 8 minə yaxın şəxs qatılıb.

İştirakçılar təqdim olunan peşələrin stendləri ilə tanış olub, peşələr üzrə ekspertlərlə söhbət ediblər. Ümumilikdə, bu il ölkənin 10 rayon və şəhərində keçirilən, növbəti dəfə Naxçıvanda reallaşan festival çərçivəsində robototexnika, proqram tərtibatçısı, data analitika, aşpaz, barista, aqronom, bərbər, mobil telefonların təmiri ustası, elektrik avadanlıqlarının təmiri, yardım masası, Uİ/UX dizayner, qrafik dizayner, geyim üzrə dizayner, fotoqraf/videoqraf peşələri üzrə peşəkar ekspertlər tərəfindən təqdimat və vörkşoplar keçirilib. Qeyd edək ki, festivalda iştirakçılar peşələr üzrə hansı bacarıqların tələb olunduğunu öyrənib, müxtəlif peşələr üzrə ekspertlərin təqdimatlarında iştirak edib və peşələrlə əyani şəkildə tanış olmaq imkan əldə ediblər. Bundan başqa, festival iştirakçılarına agentliyin Mərkəzi Karyera Filialının karyera məsləhətçiləri tərəfindən peşəyönümlü məsləhət xidmətlərinin göstərilməsi təmin edilib, onlara xidmətlər haqqında məlumat verilib. Biz də “Şərq qapısı” qəzetinin çoxsaylı oxucularının marağını nəzərə alıb festival təşkilatçılarının və iştirakçılarının fikirlərini öyrənmək qərarına gəldik.



İlk müsahibimiz Dövlət Məşğulluq Agentliyi Mərkəzi Karyera Filialının müdir müavini ***Adil Abdullayev*** oldu. Müsahibimiz bildirdi ki, ötən il 10 regionda 10 peşə sahəsi ilə başlayan Peşələr festivalı layihəsi bu il yenidən 10 regionda, lakin 14 peşə sahəsi ilə davam edir. Ötən il bizim iştirakçı sayımız, ümumilikdə, 25 min gənci əhatə edirdisə, bu il 30 min gənci öz ətrafımızda birləşdirə bilmişik. Bu gün isə Naxçıvandayıq. Qeyd edim ki, bu günə kimi keçirilən yeddi Peşələr festivalı arasında ən çox ziyarətçi iştirak edən festival oldu. Buna görə də naxçıvanlılara öz dərin təşəkkürümüzü bildiririk.

Maraqlı peşə sahiblərindən biri ***Elçin Qarayev***in festivalın gedişatı barədə fikirlərini öyrəndik. O bildirdi ki, mobil telefonların təmiri ustasıdır. 19 ildir ki, bu peşə ilə məşğuldur və festivalda məqsədləri gənclərə bu peşənin gərəkliliyini, maraqlı cəhətlərini izah etməkdir. Ustası olduğu peşə sahəsini örnək göstərib, seçə bilmələri üçün gənclərə dəstək olurlar. Müsahibimiz onu da bildirir ki, mobil telefonların təmiri günün ən çox tələbat duyulan peşələrindəndir.

Digər müsahibimiz isə IT mütəxəssisi, Baku IT Akademiyanın quruluşçu-rəhbəri ***Səfərəli Əliyev***dir. 15 ilə yaxındır, bu sahədə olduğunu bildirən həmsöhbətimiz hazırda Peşələr festivalında kompüterlə, onun avadanlıqları ilə işləməyi, şəbəkənin ilkin anlayışlarını, quruluş sistemini və onlarla işləmə üsullarını öyrətməyə çalışır. Qeyd edir ki, gənclər bu sahəyə xüsusi maraq göstərirlər. Onlar da canla-başla gənclərə kömək olmağa çalışırlar.

Diqqətimizi çəkən daha bir stendə yaxınlaşırıq və “Alo Karyera” dəstək xidmətindən ***Sevinc Qafarova*** ilə həmsöhbət oluruq. Karyera məsləhətçisi olan Sevinc xanım bildirir ki, vətəndaşlarla onlayn və ödənişsiz formada konsultasiyalar həyata keçirirlər.



Bu konsultasiyaların məqsədi ixtisas və sahə seçimləri, karyera planlaması, iş axtarış alətləri, CV və istək məktubunun hazırlanması istiqamətlərində vətəndaşlara kömək etməkdir. Müsahibimiz xüsusi qeyd edir ki, bu, Dövlət Məşğulluq Agentliyinin xidmətidir və tamamilə ödənişsizdir. Hazırda festivalda da konsultasiya xidməti göstərilir. Eyni zamanda vətəndaşlar internet saytından qeydiyyatdan keçərək onlarla əlaqə saxlaya bilərlər.

Stendlərdə müasir peşələrlə yanaşı, qədim, ənənəvi peşə sahələrinə də rast gəlmək olurdu. Gənclərin marağını özünə çəkən bir stendə yaxınlaşdıq. Burada stilist, bərbər ***Salman İsmayılov***la qarşılaşdıq. 25 il iş təcrübəsi olan Salman usta Azərbaycanda “barbershop”, eyni zamanda MDB ölkələrində və yaxın Asiya, yaxın Avropada yeganə olan Bərbər Tarixi Muzeyi açdığını bildirir. Eyni zamanda Bərbər Akademiyasının da yaradıcısıdır. Müsahibimiz dedi: “İstəyimiz təşkil olunmuş bu cür festivallarda gəncləri maarifləndirmək, öyrətmək və bu sahədə inkişafa doğru yönəltməkdir. Necə ki, bu uğuru mən qazanmışam, arzulayıram ki, mənim də davamçılarım çox olsun və uğurlu nəticələr əldə etsinlər”.

Milliliyi və müasirliyi özündə ehtiva edən daha bir peşə stendinin qarşısında ayaq saxlayırıq. Bakı Milli Geyim Evinin və Avropa Dizayn Təhsil Mərkəzinin qurucusu və rəhbəri ***Könül Vəlibəyli*** ilə söhbətimiz zamanı peşələrinin təbliği üçün var qüvvələri ilə səy göstərdiyini bildirdi. Dizayn sahəsində, geyim dizayneri olaraq uzun illər qazandığı təcrübəsini, layihələrini, həmçinin gördüyü işləri gənc nəslə təbliğ edir. Bu səbəbdən də gələcəkdə bu peşə sahəsi ilə məşğul olmaq istəyənlərə düzgün istiqamət verməyə çalışırlar. Gənclərin bu peşə üzrə harada təhsil ala və gələcəkdə seçdikləri istiqamət üzrə harada işləyə, həmçinin necə uğur əldə edə biləcəkləri istiqamətində onlara düzgün yol göstərmək niyyətindədirlər. Müsahibimiz xanımların bu sahəyə marağını xüsusi vurğulayaraq onlar üçün tikmə, naxış kimi işlərin daha uyğun sahə olduğunu bildirdi.

Beləliklə, qədim diyarımızın festivallar şəhəri kimi tanınan paytaxtı doğma Naxçıvanımız daha bir festivala uğurla ev sahibliyi etdi. Qələbəlik, maraq və coşqu ilə müşayiət olunan festivalın sonunda iştirakçılar arasında lotoreya təşkil olundu, qaliblərə müxtəlif hədiyyələr təqdim edildi. Xatırladaq ki, festival muxtar respublika paytaxtımızdan öncə 9 noyabr tarixdə qədim Ordubad şəhərində də təşkil edilmiş və böyük maraqla qarşılanmışdı. Növbəti festival 14 noyabr 2023-cü il tarixdə Cəlilabadda keçiriləcək.

**✍ Aidə İBRAHİMOVA**
**✍ Aysel YUSİFZADƏ**

# Bulaq-abidə kompleksi istifadəyə verilib





Şərur rayonunun Cəlilkənd yaşayış məntəqəsində Vətən müharibəsi şəhidi Əmrah İsmayılovun xatirəsini əbədiləşdirmək məqsədilə ucaldılan bulaq-abidə kompleksinin açılış mərasimi olub.

Əvvəlcə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin əməkdaşı Pənah Mehdiyev bildirib ki, 44 günlük Vətən müharibəsindəki şanlı Qələbəmizdən üç il ötür. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə Əmrah kimi qəhrəman şəhidlərimiz, qazilərimiz, əsgər və zabitlərimizdir. İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıqla yad edəcək.

Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Novruz Süleymanov qeyd edib ki, Cəlilkənddən olan şəhid Əmrah İsmayılov Vətən müharibəsində qəhrəmanlıq və igidlik göstərərək şəhidlik zirvəsinə ucalıb.

Vurğulanıb ki, qəhrəman şəhidimiz döyüşlərdə göstərdiyi şücaətə görə “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Tədbirdə şagirdlərin ifasında vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.

Qeyd edək ki, ötən günlərdə rayonun Vərməziyar kəndində də Vətən müharibəsi şəhidlərinin xatirəsinə ucaldılan bulaq-abidənin açılışı olub.

**✍ Ramiyyə ƏKBƏROVA**

# Naxçıvanda tibbi aksiyada 181 məhkum müayinədən keçirilib

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin cəzaçəkmə müəssisələrində cəzaçəkən şəxslərin sağlamlığının qorunması və tibbi təminatı diqqət mərkəzində saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyindən verilən məlumata görə, noyabrın 13-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın anadan olmasının 100-cü ildönümü münasibətilə məhkumlar üçün tibbi aksiya təşkil edilib.

Səhiyyə Nazirliyi tərəfindən yaradılmış xüsusi həkim briqadası cəzaçəkmə müəssisələrində olaraq cəzaçəkən bütün məhkumları və İstintaq Təcridxanasında saxlanılan şəxsləri kompleks müayinə edib. Onlardan qan analizləri götürülüb, kardioloji, dəri-zöhrəvi, göz, psixi və digər xəstəlikləri yoxlanılıb, eyni zamanda USM və flüoroqrafiya müayinələrindən keçirilib. Ümumilikdə, 9 həkim tərəfindən 181 məhkum 267 müayinədən keçirilib, onlardan 7 məhkuma müalicə təyin edilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

# Erasmus+ layihəsi çərçivəsində “Ustadlıq Mərkəzi”nin açılışı olub

*Naxçıvan Dövlət Universitetinin tərəfdaş olduğu Avropa Komissiyasının Erasmus+ LMQS Sante layihəsi çərçivəsində ali təhsil ocağında LMQS “Ustadlıq Mərkəzi”nin açılışı olub. Tədbir Erasmus+ LMQS Sante layihəsinin idarə heyətinin iştirakı ilə baş tutub.*



Ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev açılış tədbirində qonaqları universitetdə görməkdən məmnunluğunu ifadə edərək onlara ali təhsil müəssisəsinin strukturu, professor-müəllim heyəti, tələbə kontingenti barədə ətraflı məlumat verib, yaradılacaq tibb kampusu və ali təhsil ocağında müasir dövrün tələblərinə uyğun ixtisasların üstünlüklərindən, universitetin beynəlxalq layihələrdə uğurlu iştirakından danışıb.

Rektor ali təhsil ocağında yaradılan LMQS “Ustadlıq Mərkəzi”nin tibb sahəsində kadr hazırlığının aparılmasına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Tədbirdə rektor müşaviri Rəcəb Cəfərli LMQS “Ustadlıq Mərkəzi”nin təqdimatını edib. Bildirilib ki, layihənin icrasının məqsədi Avropa təhsil sisteminə uyğun dərsliklərin hazırlanması, müəllim heyətinin təkmilləşdirilməsi və nəticədə, Tibb ixtisası üzrə bakalavriat və magistratura pillələrində təhsil alan tələbələri müasir tələblərə cavab verən kadr kimi yetişdirməkdir.

Rektor müşaviri “Ustadlıq Mərkəzi”nin tibb ixtisasları üzrə təhsil alan tələbələrin praktiki vərdişlərə yiyələnmələri üçün böyük əhəmiyyət daşıdığını deyib, ustadlıq mərkəzində yerləşən avadanlıqların idarə olunması və funksiyaları haqqında iştirakçılara məlumat verib.

Erasmus+ LMQS Sante layihəsinin idarə heyəti adından çıxış edən Qazaxıstan Kokşentausky Universitetinin əməkdaşı Svetlana Muradbekova ERASMUS+ layihəsinin əhəmiyyətindən danışaraq “Ustadlıq Mərkəzi”nin fəaliyyətinə uğurlar arzulayıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Dünya düzəninə öz imzasını qoymuş elə hadisələr vardır ki, onlar bir tarixi dövrün sona çatması və bunun ardınca yeni bir dövrə başlanılması ilə özünü yaddaşlarda yaşadır. Əgər uzaq keçmişdəki mühüm hadisələri bir anlığa unutmuş olsaq, II Dünya müharibəsindən sonrakı dövrdən başlayaraq SSRİ-nin süqutu ilə Soyuq müharibənin bitməsi, sonrasında Amerikanın təkqütblü dünyada özündən uydurduğu düşmənlə mübarizəsi, eləcə də dünyanın işgüzar mərkəzinin Qərbdən Çinə doğru yerdəyişməsi ilə qlobal enerji, kommunikasiya və logistika xətlərinin də yeni marşrutlar üzərinə çıxması ötən 70 il ərzində müharibələrdən yorğun düşmüş qoca dünyanın qət etdiyi məsafənin bir hissəsidir.*

# Tarixə dönən və gorbagor olmuş kəlmələr

## Əziz şəhidlərimizin xatirəsinə




Ötən əsrin 90-cı illərindən etibarən isə dünyada “.com” erasına başlanılmaqla paralel olaraq sivilizasiyalararası konfliktlərin də yeni konturlara keçməsi ilə, əslində, tarixi nisbətən daha irəliyə dayanan yeni konfliktlərə də qaynar yağ töküldü. İki yüz il ərzində qonşu torpaqları hesabına dövlət qurmaq istəyən ermənilər çoxdan gözlədikləri fürsəti göydə qapıb yenidən öz cinayət əməllərinə geri döndülər: erməni faşizmi Cənubi Qafqazda yenidən baş qaldırdı!

Bu gün artıq otuz ildən çox davam etmiş Qarabağın erməni işğalının tamamilə tarixə gömüldüyü, Azərbaycanın öz dövlət suverenliyini tam şəkildə təmin edərək Xankəndidə Qələbə paradı keçirdiyi bir zamanda ötən bu dövrdən yaddaşlarımıza iz salmış bəzi kəlmələri bir daha xatırlatmaq, bəlkə də, yerinə düşərdi. Təkcə ona görə yox ki, bu ifadələrin bəziləri bizi heç zaman dost olaraq görmək istəməyən erməni toplumunun əsl xislətini əsla unutmamaq və unutdurmamaq üçün yaddaşımızda yaşamalıdır. Bu həm də ona görə lazımdır ki, gələcək nəsillər, bəlkə də, yüz illər sonra yer üzündə həyatın tamamən başqa bir üslubda və texnoloji zəmində olacağı bir dövrdə də oxuyub bilsinlər ki, insanlar nə qədər müharibələrdən yorulub, əbədi sülh və sevgi arayışında olsalar da, mütləq haradasa gizlənmiş bir şeytan vardır ki, onun fitvası ilə bu gözəl dünyamız yenidən qaranlığa bürünə, günahsız insanların qanı axıdıla bilər.

Hələ 35 il əvvəl, Xankəndidə Azərbaycanın pulu, nefti, qazı, çörəyi, suyu ilə yağ-bal içində yaşayan haylar “miatsum” quruldaşmaları ilə küçəyə axışdıqları vaxt ozamankı gənclik, bəlkə də, ilk dəfə olaraq “separatizm” kəlməsi ilə tanış oldu. Etimologiyası da, əsasən, fransız mənşəli olan bu kəlmənin elə indinin özündəki kimi, şorbasının Parisdə bişirilib, çömçəsinin də Berlindən uzadıldığı “erməni separatizmi” timsalında sonradan Gürcüstan, Moldova, Ukraynaya da sıçrayıb hər yeri qana bulaması, bəlkə də, təsadüfi deyildi. Bununla da 1988-ci ildə Xankəndidə, bax bu meydana doluşmuş meymun sürüsünün beynini zəhərləmiş bədnam “hayastan” xülyası sonrakı illərdə daha dəhşətli bir apokalipsisin – “erməni terrorizmi”nin qanlı simptomları kimi bütün hayları yoluxduran bir pandemiya kimi dünyanın başına bəla olacaqdı.

Doğrudur, hazırda Qarabağda basdırılmış minaların partlaması ilə davam edən erməni terrorizmi hələ tam gorbagor olmasa da, daha əvvəlki illərdə erməni işğalı ilə leksikonumuza daxil olan onlarla sayda kəlmələr oldu ki, bu gün onların bəziləri yada düşdükcə ürəklər dağlanır, yaxud da ermənilərin yuxusunu qaçıran “dəmir yumruq”lar düyünlənir. Amansızlığı və qəddarlığı ilə bənzəri olmayan Xocalı soyqırımı, onun qurbanlarını lentə almış Milli Qəhrəman Çingiz Mustafayevin qulaqlardan getməyən həmin o “Allah!” kəlmələri heç bir azərbaycanlı tərəfindən heç zaman unudulmayacaq. Dərələyəzin, Kəlbəcərin qarlı dağ aşırımlarında don vurub qaralmış çılpaq ayaqlarını daha ata bilməyib anasının ardınca “Ana!” hıçqırtısı ilə gözlərini yuman balaca qızcığazların bu son kəlməsi isə sonralar çığ kimi böyüyərək Qarabağ fatehlərimizin ürəyindəki qisas alovuna dönəcəkdi.

Ancaq bütün belə unuda bilməyəcəyimiz kəlmələrlə yanaşı, 1994-cü ildən 2020-ci ilin 27 sentyabrına qədərki dövrdə o qədər yaddaşımızı məşğul edib, sonradan “status-kvo” kimi cəhənnəmə getmiş kəlmələr də vardır ki, onlar da, sözün əsl mənasında, bugünkü erməni revanşistlərinin və onların havadarlarının bir növ vizit kartı idilər. Otuz il ərzində, guya, münaqişəni danışıqlar yolu ilə həll etməyə çalışan, əslində isə bir turizm firmasının işindən artığını görə bilməyən “ATƏT-in Minsk qrupu”, onların iştirakı ilə qoşunların təmas xətti boyunca keçirilən “monitorinqlər” və bu təmas xəttinin arxasında milyonlarla dollara başa gəlmiş mifik “Ohanyan səddi” də bu gün artıq göndərilmiş yerlərindədir.

Gözəl Qarabağ, mədəniyyət paytaxtımız Şuşa özünün füsunkar cazibəsi ilə buraya səfər edən hər bir kəsi məftun edib. Ancaq otuz il əvvəlki Qarabağdan fərqli olaraq bu gün erməni işğalından geriyə qalanlar 1945-ci il Xirosimasından heç də fərqlənmir. Dünyanın ən məzlum və ən əzabkeş xalqı cildində siyasətçilərin gözünə girib Xocalıda, Meşəlidə, Ağdabanda soyqırımı törədən, sonradan isə ədalət məhkəməsində timsah göz yaşları tökən ermənilər işğal altında saxladıqları torpaqlarda daşı daş üstə qoymayaraq, əslində, təkcə sürünənlərin deyil, gəmiricilər dəstəsinin də unikal bir biotəsnifat nümunəsi olduqlarını bütün dünyaya sübut etdilər. Nəticədə, işğaldan sonra Qarabağa səyahət edən istər yerli, istərsə də əcnəbi turistlər, eləcə də diplomatlar, səfirlər və dövlət başçıları üçün dünyanın heç bir yerində analoqu olmayan bir “Qaranlıq turizmi” destinasiyası miras qalıb. Nə qədər acı, nə qədər təəssüfverici olsa da, bu kəlmə hələ on illərlə bizimlə bərabər qalacaq və bütün dünya erməniliyinin üzünə tərs şapalaq kimi dəyəcəkdir. Elə buna görə də Qarabağın dağıdılmış yaşayış məskənlərinin, məscidlərinin, evlərin sökülüb satılmış divar daşlarının boş qalmış yerlərinin, susuzluqdan yanıb kül olmuş meyvə bağlarının, kəsilmiş çinarlarının, quruyub yox olmuş çaylarının, ayaq altında tapdalanıb əzilmiş otların və çiçəklərinin son halı bu dünyada erməni vandalizmini ifşa edə bilmək üçün ən tutarlı kəlmələr olacaqdır. Dünya biləcək ki, torpaqlarımıza uydurma adlar yapışdırıb, təpəgözə oxşayan heykəllər quran ermənilər, özlərinin də gələcəyinə inanmadığı və varlığını da heç zaman tanımadığı bədnam “Artsax” adlı bir oyuncaq dövlət qurub, mərkəzini də çoxdan gorbagor olmuş daşnak terrorçu “stepan”ın adı ilə kertləşdirmişdilər. Və bütün bunların hamısı qəhrəman Azərbaycan əsgərinin cəmisi birgünlük antiterror əməliyyatı ilə cəhənnəmə vasil olduğunda isə hayların bütün dünyanın başını ağrıdıb, Aralıq dənizindən Xəzərə qədər xəyal etdikləri nəhəng “hayastan” xəritəsi də elə cinayətkar xunta başçısının stolunun üstündəcə gorbagor oldu. Elə görünür, bunu bir “nəhayət” kimi görüb özləri üçün də bayram edən qərbli havadarlar erməni baş nazirini avroparlamentdə ayaq üstə alqışlamaqla, əslində, bütün erməniləri ələ salırdılar.

Bu gün artıq Azərbaycan ərazisində erməni separatizminin kökü tamamilə kəsilmiş, keçmişi ləkəli hay töküntüləri “erməni millət deyil”, – deyə-deyə rədd olub getmişlər. Ermənilərin, doğrudan da, millət olmadığı isə onların döyüş meydanında uduzanda dinc əhaliyə divan tutması, öz məğlubiyyətinin səbəbini sülhməramlıda axtarması və bütün imkanlar tükənəndə on illər boyu sığındıqları ağalarını satması ilə bir daha sübut olundu. Bizim üçün tam qalibiyyətlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra ikiyüzillik sərsəm erməni iddialarının birdəfəlik yox edilməsindən geriyə qalanlarsa, Vətən sevgisi ilə dastana dönən minlərlə şəhidimizin əziz xatirəsi və dövlət başçımızın hər bir azərbaycanlının dilində əbədi yaşayacaq “Qarabağ Azərbaycadır!” kəlməsi olacaq.

✍ **Əli CABBAROV**

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 1 dekabr 2023-cü il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq obyektin adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 faiz (manatla) | Obyektin satış qiyməti (manatla) | Behin həcmi 10 faiz |
|---|---|---|---|---|---|---|
| 1. | Tikintisi yarımçıq qalmış Konserv Zavodu Təyinatı saxlanılmaqla (9.23 hektar torpaq sahəsi ilə birlikdə) | Ordubad rayonu, Şəhriyar qəsəbəsi | 1992 | 2.608.270,0 | 2.608.170,0 | 260.817,0 |
| 2. | Oksigen istehsalı müəssisəsi | Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi | 2022 | 2.164.772,0 | 2.164.772,0 | 216.477,2 |
| 3. | İkimərtəbəli Ordubad aviakassa binası (avadanlıqları ilə birlikdə) (1843 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Ordubad şəhəri, M.Səid Ordubadi küçəsi 11 | 2015 | 260.429,0 | 260.429,0 | 26043.0 |
| 4. | İkimərtəbəli Şahbuz aviakassa binası (avadanlıqları ilə birlikdə) (1267.8 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Şahbuz şəhəri, Heydər Əliyev prospekti 41 | 2019 | 201.888,8 | 201.888,8 | 20189.0 |
| 5. | Uşaq bağçası təyinatı saxlanılmaqla (2642.7 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Babək rayonu, Şıxmahmud kəndi | 1980 | 106.725,0 | 106.725,0 | 10672.0 |
| 6. | Qeyri-yaşayış sahəsi (Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin köhnə binası) | Ordubad şəhəri | 1961 | 81351.0 | 81351,0 | 8135.10 |
| 7. | Üniversam binasının 2-ci mərtəbəsindəki qeyri-yaşayış sahələri ( 3 otaq) | Şərur şəhəri, Kapitan Seyidov küçəsi 3A | 1991 | 72828.0 | 72828,0 | 7282.8 |
| 8. | Çörəkxana binasının yarımçıq tikilisi | Sədərək rayonu, Sədərək kəndi | 1990 | 58300.0 | 58300.0 | 5830.0 |
| 9. | Ümumi sahəsi 462,65 kvadratmetr olan qeyri-yaşayış sahəsi (Dəstə kənd 2 nömrəli tam orta məktəbin köhnə binası) (1870 kvadratmetr torpaq sahəsi ilə birlikdə ) | Ordubad rayonu, Dəstə kəndi | 1950 | 27856.0 | 27856.0 | 2785.6 |
| 10. | Ümumi sahəsi 99,22 kvadratmetr olan qeyri-yaşayış sahəsi | Kəngərli rayonu, Qarabağlar kəndi | 1961 | 27367.0 | 27367.0 | 2736.70 |
| 11. | Ümumi sahəsi 416,0 kvadratmetr olan qeyri-yaşayış sahəsi (Tivi kənd tam orta məktəbinin köhnə binası) (3000,0 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Ordubad rayonu, Tivi kəndi | 1950 | 25640.0 | 25640.0 | 2564.0 |
| 12. | Güney Qışlaq kənd xidmət mərkəzi 200 kvadratmetr | Şahbuz rayonu, Güney Qışlaq kəndi | 2014 | 17600.0 | 17600.0 | 1760.0 |
| 13. | Türkeş kənd xidmət mərkəzi (386 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Şahbuz rayonu, Türkeş kəndi | 2019 | 13158.0 | 13158.0 | 1316.0 |
| 14. | Camaldın kənd su dəyirmanı (300 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Culfa rayonu, Camaldın kəndi | 2013 | 11500.0 | 11500.0 | 1150.0 |
| 15. | Xurs kənd xidmət mərkəzi (173 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Ordubad rayonu, Xurs kəndi | 2014 | 10865.0 | 10865.0 | 1086.0 |
| 16. | Payız kənd su dəyirmanı (762 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Babək rayonu, Payız kəndi | 2017 | 10417.0 | 10417.0 | 1042.0 |
| 17. | Kırna kənd su dəyirmanı (200 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Culfa rayonu, Kırna kəndi | 2011 | 9610.0 | 9610.0 | 961.0 |
| 18. | Nüsnüs kənd su dəyirmanı (130 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Ordubad rayonu, Nüsnüs kəndi | 2021 | 9510.0 | 9510.0 | 951.0 |
| 19. | Ümumi sahəsi 126,92 kvadratmetr olan qeyri-yaşayış sahəsi (Ələhi kənd tam orta məktəbinin köhnə binası) (1765,0 kvadratmetr torpaq sahəsi ilə birlikdə ) | Ordubad rayonu, Ələhi kəndi | 1950 | 9489,3 | 9489.3 | 948.9 |
| 20. | Saltaq kənd su dəyirmanı (68 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Culfa rayonu, Saltaq kəndi | 2016 | 8204.0 | 8204.0 | 820.0 |
| 21. | Darkənd kənd su dəyirmanı (200 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Ordubad rayonu, Darkənd kəndi | 2021 | 7900.0 | 7900.0 | 790.0 |
| 22. | Ümumi sahəsi 92,4 kvadratmetr olan qeyri-yaşayış sahəsi (Məzrə kənd tam orta məktəbinin köhnə binası) (630,0 kvadratmetr torpaq sahəsi ilə birlikdə ) | Ordubad rayonu, Məzrə kəndi | 1950 | 6510.0 | 6510.0 | 651.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 28 noyabr 2023-cü il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (8-ci küçə, 1/5A ) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 1 dekabr 2023-cü il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

*Əlaqə telefonu: 545-01-38.*

## İtmişdir

Şərur rayonunun Danyeri kənd sakini Ağamalıyev Rövşən Həmid oğlunun adına olan JN-373A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Qıvraq qəsəbəsində yaşamış Hüseynquliyev Əhməd Bəhlul oğlunun adına olan torpaq sahəsinin AA-002679 inventar nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Aralıq kənd sakini Teymurov Elxan Bəbir oğlunun adına olan 119 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Qıvraq qəsəbə Uşaq Musiqi Məktəbini 1987-1988-ci tədris ilində bitirmiş Ulxanov Əhməd Bayram oğlunun adına olan 008288 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Əhədli Abbas Qaçaxan oğlunun adına olan MN-0056088 seriya nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 657